# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69 (Cild I); 2024, № 1, maddə 126, № 2, maddə 245, № 7, maddə 914; 2025, № 3, maddə 265, № 5, maddə 512, № 12 (II kitab), maddə 1260) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə "2710 12 413 0", "2710 12 510 1" və "2710 19 421 0 - 2710 19 480 0" alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2710 12 413 0 | mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədi ilə | 1 ton üçün 200 manat (2026-cı il 1 may tarixindən 2027-ci il 31 mart tarixinədək idxal olunan 205 min ton Aİ-92 benzini üçün – 1,0 manat) |
| 2710 12 510 1 | mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun | 1 ton üçün 200 manat (2026-cı il 1 may tarixindən 2027-ci il 31 |

| | | |
|---|---|---|
| | miqdarı 0,013 q/l-dən çox, 95-dən az oktan ədədi ilə | mart tarixinədək idxal olunan 205 min ton Aİ-92 benzini üçün – 1,0 manat) |
| 2710 19 421 1 – 2710 19 480 9 | digər qazoyllar, o cümlədən dizel yanacağı | 1 ton üçün 80 manat (2026-cı il 1 may tarixindən 2027-ci il 31 mart tarixinədək idxal olunan 201 min ton dizel yanacağı üçün – 1,0 manat) |

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 27 ” “ aprel ” 2026-cı il

№ 118